Azərbaycan Mikromaliyyə Assosiasiyası

Azerbaijan Micro-finance Association

AYLIQ BÜLLETEN
YANVAR
2025-ci il

195-ci buraxılış

Bu nömrədə:

1. Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı" İşçi qrupunun iclası
2. KOBİA yanında İctimai Şuranın Yeni Tərkibdə ilk İclası
3. Maliyyə Sektorunda İnsan Resursları Əməkdaşlığı görüşü
4. AMFA və Sanctions Scanner BOKT-lar üçün Təqdimat Görüşü keçirdi
5. İqlim və Mikromaliyyə Koalisiyasının ilk iclası
6. Aqrar İnnovasiya Mərkəzi ilə Əməkdaşlıq görüşü
7. Frankfurt Məktəbi ilə Yeni Tərəfdaşlıq Hazırlıq Mərhələsindədir
8. Kooperativlərin İdarəetmə Potensialının Artırılmasına Dəstək Göstərildi
9. 2025 Beynəlxalq Kooperativlər ilidir.
10. Üzvlər köşəsi
11. Peşəkar İnkişaf

AMFA-nın Missiyası

Mikromaliyyə qurumlarının potensialını gücləndirmək və mikro maliyyə icmasının və müştərilərinin maraqlarını təmin etmək üçün effektiv kollektiv fəaliyyətinin təşviq edilməsidir.

Yanvar 2025
Bakı, Azərbaycan

“Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı” İşçi qrupunun iclası

24 yanvar 2025-ci il tarixində Mərkəzi Bankda Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın nəzdində fəaliyyət göstərən “Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı” işçi qrupunun növbəti iclası keçirilib. Görüşdə Dünya Bankı Qrupunun “Business Ready” hesabatının “Maliyyə xidmətləri” indikatoru üzrə 2024-cü il Yol Xəritəsinin icra vəziyyəti, eləcə də 2025-ci il üçün planlaşdırılan tədbirlər müzakirə olunub.

Təqdimatlar zamanı KOS-ların maliyyələşdirilməsi, startaplar üçün maliyyə resurslarına çıxış, mikromaliyyə təşkilatlarının fəaliyyəti, elektron ödənişlər, kredit büroları, yaşıl maliyyə və digər prioritet sahələrə dair görülmüş işlərə və nəzərdə tutulan təşəbbüslərə toxunulub.
İclasda AMFA-nın Müşahidə Şurasının sədri Cəlal Əiyev və icraçı direktoru Jalə Hacıyeva ilə yanaşı, bir sıra dövlət qurumları, assosiasiyaları və özəl sektor nümayəndələri iştirak ediblər

KOBİA yanında İctimai Şuranın Yeni Tərkibdə İlk İclası

Ötən il Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yanında İctimai Şuranın yeni tərkibinin formalaşdırılması üçün seçkilər keçirilmiş və şuraya 15 vətəndaş cəmiyyəti institutunun nümayəndələrindən ibarət yeni üzvlər seçilmişdi.

Belə ki, 09 yanvar 2025-ci il tarixində KOBİA yanında İctimai Şuranın yeni tərkibdə ilk iclası keçirilib. İclasda şuranın sədri seçilib.

İclasda KOBİA yanında İctimai Şuranın gələcək fəaliyyətinə və 2025-ci il üzrə Tədbirlər Planına dair fikir mübadiləsi aparılıb və şura üzvlərinin təklifləri dinlənilib.

Qeyd etmək istərdik ki, Azərbaycan Mikromaliyyə Assosiasiyasının (AMFA) İcraçı direktoru Jalə Hacıyeva KOBİA yanında İctimai Şuranın yeni seçilmiş tərkib üzvləri siyahısındadır.

Maliyyə Sektorunda
İnsan Resursları Əməkdaşlığı görüşü

Mərkəzi Bankın “2024–2026-cı illər üzrə maliyyə sektorunun inkişaf strategiyası”nda maliyyə mütəxəssislərinin peşəkarlıq səviyyəsinin artırılması əsas prioritetlərdən biri kimi müəyyən olunduğu üçün, cari ilin 16 yanvar tarixində Mərkəzi Bankın Maliyyə Məlumatlılığı və Peşəkar İnkişaf Şöbəsinin təşkilatçılığı ilə sektorun İnsan Resursları üzrə mütəxəssisləri ilə əməkdaşlığın genişləndirilməsinə həsr olunmuş görüş keçirilmişdir.

Tədbirdə müxtəlif assosiasiyaların nümayəndə heyəti, o cümlədən assosiasiyaların nəzdində fəaliyyət göstərən İnsan Resursları Komitəsinin üzvləri iştirak etmişdir.

Görüşdə AMFA-nın İcraçı direktoru Jalə Hacıyeva, o cümlədən Üzvlərlə əlaqələr mütəxəssisi və İnsan Resursları Komitəsinin üzvləri də təmsil olunmuşdur.





AMFA və Sanctions Scanner BOKT-lar üçün təqdimat görüşü keçirdi

23 yanvar 2025-ci il tarixində Azərbaycan Mikromaliyyə Assosiasiyası (AMFA) üzv və qeyri-üzv Bank Olmayan Kredit Təşkilatları (BOKT-lər) üçün “Sanctions Scanner” şirkəti ilə onlayn təqdimat görüşü təşkil etmişdir. Görüş ZOOM platforması üzərindən baş tutmuşdur.

Tədbir zamanı “Sanctions Scanner” şirkətinin fəaliyyət istiqamətləri, təqdim etdiyi xidmətlər və mikromaliyyə sektoru üçün əhəmiyyəti barədə ətraflı məlumat verildi. Şirkətin əsasən sanksiyaların izlənməsi, müştəri verifikasiyası (KYC), AML proseslərinin avtomatlaşdırılması və risklərin azaldılması üzrə həlləri diqqətə çatdırıldı.

Görüş çərçivəsində iştirakçılara platformanın demo versiyası təqdim olunaraq, real istifadə imkanları nümayiş etdirildi. Təqdimat iştirakçılar tərəfindən maraqla qarşılandı və gələcək əməkdaşlıq imkanlarına dair suallar müzakirə olundu.





İqlim və Mikromaliyyə Koalisiyasının ilk iclası

28 yanvar 2025-ci il tarixində Polşa Mikromaliyyə Mərkəzinin təşəbbüsü ilə "İqlim və Mikromaliyyə Təşəbbüsü" Koalisiyasının ilk iclası keçirildi. Virtual formatda keçən tədbir iqlim dəyişikliyi ilə mübarizədə mikromaliyyənin rolunu və bu sahədə beynəlxalq əməkdaşlığın perspektivlərini müzakirə etmək məqsədini daşıyırdı. İclasa Azərbaycan Mikromaliyyə Assosiasiyasının (AMFA) icraçı direktoru Jalə Hacıyeva moderatorluq etdi.

İclasda "İqlim və Mikromaliyyə Təşəbbüsü" haqqında geniş məlumat təqdim edildi. Təşəbbüsün mahiyyəti və məqsədləri Polşa Mikromaliyyə Mərkəzinin baş direktoru Katarzyna Pawlak və Azərbaycan Mikromaliyyə Assosiasiyasının icraçı direktoru, həmçinin Mikromaliyyə Mərkəzinin keçmiş Şura sədri Jalə Hacıyeva tərəfindən izah olundu.

İqlim maliyyəsi üzrə tanınmış ekspert Yarek Dmovski iclasda açar məruzə ilə çıxış edərək mikromaliyyə institutları və şəbəkələri üçün qlobal maliyyə gündəliyində daha fəal iştirak imkanlarını vurğuladı. Daha sonra tədbir çərçivəsində mikromaliyyə təşkilatlarının (MFP-lərin) və assosiasiyaların "İqlim və Mikromaliyyə" proqramında və ümumilikdə qlobal koalisiyada roluna dair geniş müzakirələr aparıldı. İştirakçılar bu sahədə həm milli, həm də beynəlxalq səviyyədə əməkdaşlığın artırılması yollarını nəzərdən keçirdilər. O cümlədən, "İqlim və Mikromaliyyə Təşəbbüsü"nün gələcək inkişafı üçün strategiyalar müəyyənləşdirildi və bu təşəbbüsün qlobal iqlim gündəliyinə inteqrasiyasını təmin etmək üçün konkret addımlar planlaşdırıldı.



Aqrar İnnovasiya Mərkəzi ilə əməkdaşlıq görüşü

17 yanvar 2025-ci il tarixində Azərbaycan Mikro Maliyyə Assosiasiyası və Aqrar İnnovasiya Mərkəzi arasında AMFA üzvləri və tərəfdaşlarının iştirakı ilə onlayn formatda görüş keçirildi. Görüşün məqsədi kənd təsərrüfatı sahəsində innovativ yanaşmaların və dayanıqlı inkişaf modellərinin mikromaliyyə sektoru ilə inteqrasiyasını müzakirə etmək, qarşılıqlı əməkdaşlıq imkanlarını araşdırmaq və ortaq layihə perspektivlərini nəzərdən keçirmək idi.

Tədbirdə AMFA-nın İcraçı direktoru Jalə Hacıyeva, üzvlərlə əlaqələr üzrə mütəxəssis, həmçinin Regional layihələr rəhbəri Sevinc Rüstəmova iştirak etdilər.



Frankfurt Məktəbi ilə Yeni Tərəfdaşlıq Hazırlıq Mərhələsindədir



AMFA Frankfurt Məktəbi (FS) ilə birgə idareedicilər üçün proqramın yaradılması istiqamətində danışıqlarını davam etdirir. Son virtual görüş zamanı iştirakçılar proqramın məzmunu, adı və məzunlara təqdim olunacaq sənəd formatı ilə bağlı ətraflı müzakirələr aparıblar. Bu təşəbbüsün davamlı və yaşıl gələcək naminə güclü liderlik və idarəetmə bacarıqlarının inkişafına xidmət edən, yüksək təsirli və qarşılıqlı faydalı əməkdaşlığa çevriləcəyi gözlənilir.



Kooperativlərin İdarəetmə Potensialının Artırılmasına Dəstək Göstərildi

21 yanvar 2025-ci il tarixində "Gənc Aqrosahibkarlar" layihəsi çərçivəsində Lənkəran rayonunda yaradılan göstərən "Lankaran Natural Products" və "İvradamon" kooperativləri üçün "Biznesin idarəedilməsi" mövzusunda təlim təşkil olunub.

Təlimdə iştirakçılara biznesin planlaşdırılması, strateji yanaşmalar, onlayn satış və marketinq strategiyaları, brendinq və qablaşdırma sahələrində faydalı məlumatlar təqdim edilib. Toxunulan mövzuların əsas məqsədi kooperativlərin dayanıqlı inkişafını təmin etmək və bazar rəqabətində daha güclü mövqe tutmalarına dəstək olmaqdır.

Təlim proqramının davamı olaraq, kooperativlərin biznes fəaliyyətlərini daha səmərəli şəkildə həyata keçirməsini təmin etmək üçün mentorluq dəstəyi göstəriləcəkdir.

***

Kooperativ üzvlərinin müraciəti əsasında 15 yanvar 2025-ci il tarixindən etibarən ZOOM platforması üzərindən "Kooperativlərin Maliyyə İdarəedilməsi" mövzusunda təlim sessiyaları həyata keçirilməyə başlanmışdır. Beş gün davam edən sessiyalar çərçivəsində iştirakçılara maliyyə idarəetməsinin əsas prinsipləri barədə ətraflı məlumat təqdim edilmişdir.



Təlim proqramı aşağıdakı əsas mövzuları əhatə etmişdir:

- Mühasibat uçotu və maliyyə məlumatlarının idarə edilməsi
- Maliyyə vəsaitlərinin cəlb edilməsi üsulları
- Mikro-maliyyə institutları və onların təqdim etdiyi məhsullar
- Vergi sisteminin əsas prinsipləri

Sessiyalar zamanı iştirakçılar praktiki nümunələr əsasında bilik və bacarıqlarını artırmaq imkanı əldə etmiş, maliyyə resurslarının səmərəli idarə olunması ilə bağlı vacib məqamlarla tanış olmuşlar.

2025 - Beynəlxalq Kooperativlər ilidir

Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası 2025-ci ili rəsmi olaraq “Beynəlxalq Kooperativlər İli” elan edib. Bu qərar, kooperativlərin dayanıqlı iqtisadi inkişafdakı rolunu vurğulamaq, onların qlobal miqyasda daha da güclənməsinə və inklüziv iqtisadiyyatın inkişafına töhfə vermək məqsədi daşıyır.

Beynəlxalq Kooperativlər İli çərçivəsində kooperativlərin sosial-iqtisadi təsirinin artırılması, maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi və dayanıqlı biznes modellərinin təşviqi ilə bağlı bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Xüsusilə mikro, kiçik və orta sahibkarların rəqabət qabiliyyətinin gücləndirilməsi üçün yeni dəstək mexanizmlərinin yaradılması gözlənilir.

Azərbaycan Mikromaliyyə Assosiasiyası (AMFA) bu beynəlxalq təşəbbüsün yaratdığı imkanlardan maksimum faydalanmaq və yerli kooperativlərin inkişafına dəstək vermək məqsədilə fəaliyyətini davam etdirir. AMFA-nın həyata keçirdiyi “Gənc Aqrosahibkarlar” layihəsi çərçivəsində ötən il Lənkəran rayonunda “İvradamon” və “Lankaran Natural Products” kooperativləri yaradılmışdır. Bu kooperativlər kənd təsərrüfatı sahəsində yerli istehsalın və bazara çıxış imkanlarının genişləndirilməsinə töhfə verir.

AMFA, yerli kooperativlərin maliyyə resurslarına çıxışını artırmaq, onların idarəetmə bacarıqlarını inkişaf etdirmək və davamlı biznes modellərini formalaşdırmaq üçün fəaliyyətini genişləndirməkdə qərarlıdır. Beynəlxalq Kooperativlər İli bu istiqamətdə yeni perspektivlər açaraq kooperativ hərəkatının daha da güclənməsinə şərait yaradacaq.

ÜZVLƏR KÖŞƏSİ

PAŞA Bank Azərbaycanın ən yaxşı bankı seçildi

Ölkənin aparıcı korporativ maliyyə institutu “PAŞA Bank”, 2025-ci ildə beynəlxalq maliyyə nəşri “International Investor” tərəfindən “Azərbaycanın ən yaxşı bankı” nominasiyasında qalib elan olunub. Bank bu mükafata Azərbaycanın qeyri-neft sektorunda qazandığı uğurlara və ölkə iqtisadiyyatının dayanıqlı inkişafına verdiyi töhfələrə görə layiq görülüb.

“International Investor” nəşrinin mükafat laureatlarına həsr olunmuş xüsusi buraxılışında "PAŞA Bank"ın son il ərzində nail olduğu əsas məqamlar barədə geniş məlumat təqdim edilib. Xüsusilə "yaşıl layihələrə" yönəlik investisiyalardakı artım, dayanaqlı biznes həllərinin həyata keçirilməsi, yerli və regional bazarlarda maliyyə mövqelərinin möhkəmləndirilməsi kiminailiyyətlərdən ətraflı bəhs olunub.

Xatırladaq ki, “PAŞA Bank” son illər ərzində yerli və xarici ekspert icmaları, o cümlədən “Euromoney”, “Global Finance” və digər maliyyə nəşrləri tərəfindən “Azərbaycanın ən yaxşı KOS bankı”, “Azərbaycanın ən yaxşı özəl bankı” kimi nüfuzlu nominasiyalarda qalib elan olunub.

Peşəkar İnkişaf

Frankfurt School AMFA üzvləri və tərəfdaşları üçün e-tədris proqramlarına endirim edir!

Frankfurt School of Finance & Management

German Excellence. Global Relevance.

Məmnuniyyətlə bildirmək istərdik ki, AMFA-nın Frankfurt School ilə tərəfdaşlıq müqaviləsi yenilənmişdir! Bu tərəfdaşlıq AMFA üzvlərinə beynəlxalq təhsil imkanlarını araşdırarkən daha çox üstünlük əldə etməyə imkan verəcək!

Əlavə məlumat əldə etmək üçün marketing@amfa.az ilə əlaqə saxlayın

MASTER OF LEADERSHIP IN SUSTAINABLE FINANCE

Online

Frankfurt School



Curriculum

MASTER OF LEADERSHIP IN SUSTAINABLE FINANCE -ONLINE



Core Modules
Development Finance Track
Green Finance Track
Electives (choose one elective)

This course equips you with knowledge to advance the following SDGs:

All information is intended to provide a general overview of the study programme. Frankfurt School of Finance & Management reserves the right to modify the curriculum, the schedule or any parts thereof. The same applies to the tuition fees and internal.

AACSB ACCREDITED · EQUIS ACCREDITED · ASSOCIATION OF MBAS ACCREDITED

↗ www.frankfurt-school.de

STAATLICHE ZENTRALSTELLE FÜR FERNUNTERRICHT ZUGELASSEN ZFU NR. 1103819

FS-30350P 02/2024 FL

Azərbaycan Mikromaliyyə Assosiasiyası

Azerbaijan Micro-finance Association

www.amfa.az

@AMFA.Azerbaijan

@AMFAAzerbaijan

@AMFA

@amfaaz

+994 12 437 16 45

AZ1065, Azərbaycan, Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 44, Kaspian Plaza 1, 5-ci mərtəbə